# Vaqif Səmədoğlunun gündəliyindən səhifələr

## Şair bu mətnləri "Əlaltı yazılar" adlandırıb

Nə ürəkdə, nə üzdə barışa bilər şair oğlu dünənlə, bu günlə, sabahla. Ömür dərddi, dərd gələndə batmanla gəlir. Harda, nə vaxt, kim doğulduğunun bu işdə fərqi yoxdur. Sən şair deyilsən. Sənə kimsə şeir yazdırır, səni öldürə-öldürə, özünü, yəni həyatı yaşada-yaşada. Ömrün uzun olsun, həyat!..

* * *

Özgə yolundan keçmək olmaz. Özgə yolundan keçmək üçün gərək öz yolundan çıxasan. Keçirsənsə, deməli, öz yolun yoxdur bu dünyada.

* * *

Ən pis yorğunluq işdən-gücdən, daş daşımaqdan yorulmaq deyil, bir yerdə oturub, əli ağdan-qaraya vurmamaqdan yorulmaqdır. Deyilməmiş, yazılmamış fikirlər də adamın belini əyir.

* * *

Rənglənmiş yuxular. Uşaq rəsmləri kimi. Oyanmaq da istəmirsən, o yuxuda qalmaq da. Qəribə bir əlacsızlıq.

* * *

İnsan ayrılıqdan ancaq cismən nədənsə, kimdənsə uzaq düşəndə başlayır fikirləşməyə. Ancaq insan daima ayrılıq içindədir. Saniyə-saniyə, anbaan keçmişdən ayrılır, uzaq düşür. Qürbətdən vətənə



qayıtmaq olar, illərlə üzünə həsrət qaldığın övladlarınla görüşə bilərsən. Ancaq uşaqlığa insan ömründən nə yol var, nə körpü. Əsl ayrılıq da budur. Övlad, vətən həsrəti yox.

* * *

Mən ancaq sözlərdən palaz toxuyub, salıram öz altıma. Uzanıb, elə bilirəm ki, şairəm. Bəzən özüm haqda insan kimi düşünən vaxtlarım da olur. Ancaq bu hala çox içəndən sonra düşürəm xoşbəxtlikdən.

* * *

Bakının iqlimi insan üçün yaranmayıb. Bu şəhərdə gərək qurumuş ağac olasan.

* * *

Əsrlərdən bəri Azərbaycan kəndlərində qapı ağzında oturub, yollara baxa-baxa quruyub qalmış adamların fikirləşdiklərini yazıb, iki-üç iri kitab bağlamaq kaş mümkün olaydı.

* * *

İnsan 40 yaşı tamam olandan sonra rast gəldiyi adamlara salam yox, sağ ol deməlidir. Vidalaşmağa başlamalıdır...

* * *

Yuxudan indicə qalxmışam. Baş da ürək də bomboş. Oğurlanıb, viran edilmiş, sonra da çölə atılmış avtomobil kimiyəm. Ümid, arzu yerləri hava, yağış altda qalıb paslanan bir metal yığını. Ara bir içimdən dünyaya bir kərtənkələ baxır. Canı isinə bilməyən məxluq.

* * *

Mən o dünyada bu dünyadan şikayət etməyəcəyəm. Yalnız yaxşılıqlardan danışacağam.

* * *

Getmişdim doğma ağaclardan yaxınlıq, mehribanlıq almağa. Gəlib gördüm baltalanıblar. Oduna, manqala gedib doğmalıq.

* * *

Lombarda şeirlərimi qoymaq olarmı?

* * *

Gələcəyə yönəlmiş dünyada köhnə yerləri saxlamaq çox vacibdir. Gələcək və balalar üçün.

* * *

Qarmaqdan yapışıb intihar edən balıq.

* * *

Yaman təmizlik həsrəti doğulub içimdə. Lap vasvası olmuşam. Görəsən, nədəndir? Yəqin ki, təzə şeirlər başlayacağam yazmağa. Görünür, şeir yazmaqdan qabaq içəridə nə isə təmizlənir, ətrafı da pak görmək istəyirsən. İosif Qofmanın sözləri yadıma düşdü: "Qoy incəsənətə xidmət sizdə həmişə təmizlikdən başlasın. Çalmaqdan qabaq royalın klaviaturasını spirtlə silin".

* * *

Pozanı spirt yaxşı təmizləyir. Amma qorxuram öz əlimlə öz pozanımı alkoqolik eləyim.

* * *

İndi (1.VIII.86.) Amerika radiosundan Uillis Konoverin apardığı "Caz vaxtı"verilişinə qulaq asıram. Rəhmətlik Vaqif Mustafazadə düşdü yadıma. Fağırın qulağı onunbunun maqnitofonunda qalmışdı. Gözünə öz evində içindən caz çıxara biləcək bir şey dəymirdi. Əlbəttə ki, öz barmaqlarından, öz royalından savayı... Sten Hats indi elə bil saksofonda caz yox, mərsiyə çalır yazıq Vaqifə...

* * *



SSRİ-də nə üçün dadlı qəlyan tütünü satılmır? Bəlkə Qorbaçova ya "Literaturnaya qazeta"ya məktub yazım?...

Görəsən, Jorj Simenon yaxşı tütün tapa bilirmi İsveçrədə? Tapar, orda tapar.

* * *

Bu gün (VII.86.) TV ilə "Azərbaycan dili" verilişində şifahi nitq mədəniyyəti haqda bir filologiya elmləri doktoru "danışırdı" kağızdan yazdıqlarını oxuya-oxuya. Allah, bu mədəniyyətsizlik, qanacaqsızlıqdır axı.

* * *

Nəsrdə nağıl elementləri olmalıdır. Bizdə həqiqətən artıq publisistikaya sarı üz tuturlar yazıçılar.

* * *

Ölümün gözlərinə baxa-baxa gərək yazasan həyatdan.



* * *

Sabah bu yolun qırağında olmasa da, axırında bir ağac tapacağam. Sabah ağac kölgəsində oturub çoxdan bəri itirdiyim bir şeirin bütün misraları olmasa da, beşon sözünü tapacağam. Sabah bu sözləri bir-birinin yanına düzüb, bir yol təsviri tapacağam. Sabah bu yolun qırağında olmasa da, axırında bir ağac tapacağam.

* * *

Radioda İv Montan oxuyur. Köhnə repertuarından. "Xəzan yarpaqları"... Cavanlığım düşür yadıma. Onun kitabı da çıxmışdı bizdə. İndi adını da çəkmirlər Fransa musiqisindən söhbət düşəndə. İnsanın iki üzü var, dünyanın min, milyon.

İv Montan bir zaman fəhlə Parisinin Moskvadakı simvolu idi. İndi az qala antisovetizmin simvoluna döndəriblər onu. Nə var, nə var Əfqanıstan haqqında, Polşadakı əhvalatlar haqqında öz fikri, öz sözü var.(1985)

* * *



Yadıma Dubultıda Varşava radiosuna qulaq asmağım düşdü. Həyatımda elə istedadlı, zövqlə, tapıntıyla, orijinal və məntiqli tərtib edilmiş radio verilişləri eşitməmişdim. Dili bilməyə-bilməyə, slavyan sözlərindən az-maz mətləbi duyaduya elə zənn eləyirdim ki, diktorlar efirlə yox, sözləri birbaşa mənə deyirlər, əvvəlcədən Latviyada olduğumu öyrənib. Mən bəlkə də o gündən sonra Şopenin, doğrudan da, polyak olduğuna inandım. Və indi onun musiqisinə tamam başqa cür qulaq asıram. İndi gör, o xalq tamam müstəqil, azad olsaydı bu dünyada nə işlər görər, ədəbiyyatda, incəsənətdə, musiqidə nələr yaradardı.

* * *

Gecələrin səhərə yaxın dili tutulanda, günəş doğmaqdan qabaq çökən bu sükutda, barış, bacım, barış səhrayla, köçəri ol bu səhərdən sonra. Dəvə can, uşaq əmizdir açıqlıqda. Göydə ulduzları, yerdə qoyunları say, bacım, gecələr dam altına, gündüzlər bulud kölgəsinə sevinə-sevinə. Sonbeşiyini belinə bağladığın al şaldan savayı. Heç bir şeylə seçilmə, bacım, bu səhranın, bu qumların rəngindən. Yer üzündə olmuş və olacaq nəğmələrdən ən aramını başla oxumağa, bacım, o başda gün batanda. Elə aram, elə sakit oxu ki, yadından çıxsın nə vaxt dünyaya gəldiyin. Qum həmişə olub, dəvələr, qoyunlar, ulduzlar həmişə olub bu səhrada. Həmişə günəş doğub gecənin səsini batıran sükut çökəndən sonra. Sən də həmişə olmusan burda, bacım, səni doğan insan gözünə görünməyib bu səhrada...

* * *

O dünyanın şeir məclislərində mənim yazılarımı sevə-sevə neçə köhnə, təzə məzar yiyəsi oxuyur. Aşıqlar da nəğmə üstə demək istərdilər şeirlərimi, ancaq sazları bu dünyada qalıb. Ora gəlib çıxanda özümə xeyli dost, pərəstişkar tapacağam. Ölüb gedən əzizlərimi də görəcəyəm yəqin. Sümüklərindən tanıya bilsəm.

* * *

Avropa ölkələrinin hansında yaşaya bilərdim mən? Heç birində. Amerikada yurd salmaq olardı, Bakı orada tikilmiş olsaydı. Dilləri də bizim dil olsaydı. İngilis dili yox.